

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 113 (23.525)

16 iyul 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasdakı nitqində son günlər ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş hadisələrdən, bununla bağlı Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti qurumlara göstəriş verilməsindən, bütün beynəlxalq təşkilatların Ermənistanın bu diversiyası ilə əlaqədar məlumatlandırılmasından, Təhlükəsizlik Şurasının toplantısının çağırılmasından ətraflı danışıb. Prezidentin nitqində, eyni zamanda Tovuzda şəhid olan hərbçilərdən bəhs olunub, general Polad Həşimovun orduda çox böyük hörmətə malik olması, Aprel döyüşlərində rəşadət göstərməsi xüsusi vurğulanıb. Prezident İlham Əliyev bu gün səhər saatlarında general Polad Həşimovun anası Səmayə xanımla telefonla danışdığını, ona başsağlığı verdiyini, Allahdan səbir dilədiyini bildirib, son günlər ərzində baş vermiş qanlı döyüşlərin Azərbaycan dövlətinin, Ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyini bir daha göstərdiyini söyləyib.

Dövlətimizin başçısı vurğulayıb ki, biz dövlətimizi qoruyuruq, qoruyacağıq. Azərbaycan xalqı dəfələrlə vətənpərvərlik göstəribdir. Bu, bizim növbəti şanlı qələbəmizdir.



***Müasirliyə qovuşmuş qədim diyarımızda fəaliyyət göstərən torpaq mülkiyyətçilərinin, ailə təsərrüfatlarının, sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsullar dükan-bazarlarımızda yaradılmış bolluğu daha da artırıb, süfrələrimizi bir qədər də zənginləşdirib. Həmin məhsulların rəqabətədavamlı və ixracyönümlü olması onların muxtar respublikadan kənara çıxarılmasına imkan verib. Bu imkanlardan səmərəli istifadə edilməsi diqqət mərkəzində saxlanılıb.***

*“İxrac ili” – 2020*

# İqtisadi potensialın artımı uğurlu siyasətin bəhrəsidir

## “İxrac ili”ndə bu potensial daha da yüksəlməkdədir



Ümumiyyətlə, qeyd olunmalıdır ki, keçirilən beynəlxalq tədbirlərdə muxtar respublikanın məhsul istehsalçılarının iştirakının təmin edilməsi və ixrac üçün potensial və perspektivli sayılan dövlətlərdə sərgilərin, forumların təşkili əsas prioritetlərdəndir. Son illərin statistikasına nəzər yetirsək, muxtar respublikadan 1000 nəfərdən çox nümayəndənin 200-dən çox yerli və beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak etdiyini və uğur qazandığını görərik. Təkcə 2017-2018-ci illərdə “Caspian European Club”un ölkəmizin iqtisadi regionları üzrə 18 parametrlə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq 1-ci yerə layiq görülməsi də son illərin uğurlu iqtisadi göstəricilərinə ən bariz nümunədir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, son onilliklərdə muxtar respublikada sosial-iqtisadi, elmi-mədəni, quruculuq-abadlıq, sənaye və kənd təsərrüfatı, nəqliyyat və rabitə, infrastruktur və turizm, eyni zamanda ordu quruculuğu sahələrində, məhsul istehsalının artımı və əhalinin həyat şəraitinin yüksəldilməsində böyük irəliləyişlər əldə edilib, bir sözlə, Naxçıvan Azərbaycanımızın ən qabaqcıl, inkişaf etmiş nümunəvi diyarına çevrilib.

Sözsüz ki, bu gün əldə olunan yüksək göstəricilər və durmadan artan iqtisadi potensial tendensiyası həyata keçirilən uğurlu istlahatların və sabitliyin nəticəsidir. Muxtar respublikamızda ötən il də bütün sahələrdə böyük uğurlara imza atıldı. Keçirilmiş 33 beynəlxalq tədbirdə muxtar respublikadan 122 sahibkarlıq subyektinin iştirakı təmin edilib və uğurlu nəticələr əldə olunub. Bir çox çeşiddə məhsul Rusiya, Almaniya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdə nümayiş etdirilərək xeyli sayda alıcı qüvvəsi toplayıb.

Muxtar respublikamızda “İxrac ili” elan olunan cari ildə də qədim diyarımızın tarixinə yeni-yeni nailiyyətlər yazılır. Onu da xüsusi vurğulamaq gərəkdir ki, bu nailiyyətlərin əldə olunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla tez-tez görüşməsi və onların bütün problemlərinin həllinə həssaslıqla yanaşması böyük rol oynayır. Cari ilin fevral ayının 6-da keçirilən növbəti görüşdə Ali Məclisin Sədri demişdir: ***“2020-ci il muxtar respublikamızda “İxrac ili” olduğu üçün çalışıb ona nail olmalıyıq ki, sahibkarlıq müəssisələrinin fəaliyyəti daha da genişlənsin, yeni müəssisələr yaradılsın, iş yerləri açılsın, istehsalın və ixracın həcmi artsın”.***

“İxrac ili” nin ötən dövrünə nəzər yetirsək, görərik ki, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğı davam etdirilməkdədir. Bunun nəticəsində ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötüb. Həyata keçirilən iqtisadi siyasətin ifadəsi kimi, muxtar respublikamızda istehsal olunan 383 növdə məhsul daxili bazarın tələbatını ödəməklə, idxaldan asılılığın azaldılmasında mühüm rol oynayıb. Hazırda muxtar respublikada 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Bu tələbatın daha geniş şəkildə ödənilməsi üçün hər il olduğu kimi, bu il də yeni müəssisələrin yaradılması davam etdirilməkdədir.

Ötən uğurlu ilin ardından “İxrac ili” nin fövqündə həm də kənd təsərrüfatı məhsullarına olan tələbatı yerli istehsal hesabına ödəmək və ixrac imkanlarının artırılması məqsədilə aprel ayının 9-da “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleks istifadəyə verildi. Açılış mərasimində iştirak edən Ali Məclisin Sədri demişdir: ***“Ərzaq təhlükəsizliyinin təmin olunması üçün, ilk növbədə, şərait yaradılmalı, torpaqlardan səmərəli istifadə olunmalı, texnika və toxum təminatı həyata keçirilməlidir. Görülən işlərin nəticəsində muxtar respublikada suvarılan torpaqların sahəsi 62 min hektara çatdırılmışdır. Bu torpaqlardan yüksəkkeyfiyyətli məhsul götürmək üçün keyfiyyətli toxumlara ehtiyac vardır. Ona görə də Naxçıvanda toxumçuluq inkişaf etdirilir. Hazırda toxum tələbatının 80 faizə yaxını yerli istehsal hesabına ödənilir. “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin istifadəyə verilməsi ilə muxtar respublikada toxuma olan tələbat tamamilə yerli istehsal hesabına ödəniləcəkdir”.***






Sevindirici haldır ki, toxumçuluq sahəsinin inkişafı əhalinin ərzaq tələbatının yerli və keyfiyyətli məhsullar hesabına ödənilməsinə şərait yaratmaqla yanaşı, rəqabətədavamlı məhsul istehsalında da əvəzsiz rol oynayacaq. Göstərilən diqqətin nəticəsində ərzaq bolluğu və məhsuldarlıq artacaq, həmçinin əhalinin məşğulluğu da təmin olunacaq. Məlumat üçün bildirək ki, “Bərəkət Toxumçuluq” kompleksinə taxıl anbarı, qarışıq yem sexi, toxumların satış mərkəzi, tutumu 500 ton olan hazır məhsul anbarı, 2 min hektar əkin sahəsi, texnika və avadanlıqların saxlanılması üçün qaraj, eləcə də təmir sexi daxildir. 1924 kvadratmetr sahəni əhatə edən taxıl anbarında taxılın uzun müddət və keyfiyyətlə saxlanılmasına imkan verən və tutumu 24 min ton olan 48 bunker vardır. Qarışıq yem sexinin istehsal gücü ildə 72 min tondur. Burada quşlar üçün kökəltmə və yumurtalıq, mal-qara üçün isə ətlik və südlük istiqamətində 8 çeşiddə yem istehsal olunur. Yaradılan şərait onu deməyə əsas verir ki, toxum sarıdan istehsal gücünü artıran muxtar respublikada ərzaq təhlükəsizliyi tam təmin olunub.

May ayının 22-də Şahbuz rayonunun Badamlı qəsəbəsində “Badamlı” Mineral Sular Zavodunun istifadəyə verilməsi də “İxrac ili”nə daha bir uğurlu töhfə oldu. Müasir texnologiya və avadanlıqlarla təmin olunan 15 min hektardan artıq ərazini əhatə edən zavodun yaradılması yaxın gələcəkdə muxtar respublikaya xeyli gəlir gətirəcək. Burada quraşdırılan müasir avadanlıqlar sayəsində zavodun istehsal gücü artıb, ekoloji cəhətdən təmiz və sağlam mineral suya olan tələbatın tam ödənilməsinə şərait yaradılıb. Bu da mineral sularımızın xaricdə alıcı qüvvəsi qazanması və kapital axını baxımından çox əhəmiyyətli rol oynamaqdadır.

Görülən davamlı tədbirlər muxtar respublikanın iqtisadi imkanlarının genişləndirilməsinə, əhalinin maddi rifah halının yüksəldilməsinə, muxtar respublikaya xarici investisiyaların cəlb olunmasına yeni imkanlar açır. Diyarımız “İxrac ili”ndə yeni-yeni uğurların fövqündə bu imkanlardan və daxili potensialından səmərəli istifadə edərək yaxın gələcəkdə daha cəlbedici məkana çevriləcək. Sadalanan nailiyyətlər onu deməyə əsas verir ki, yeni istehsal sahələri istifadəyə verilməklə həyata keçirilən uğurlu siyasət muxtar respublika iqtisadiyyatını daha da gücləndirəcək.

**Türkan HÜSEYNLİ**

## Yeni quruculuq ünvanları



Dövlət rəmzləri milli dövlətçiliyin, istiqlaliyyətin mövcudluğunu, xalqın keçmişini və gələcəyə yönəlmiş ən ülvi arzularını ifadə edir. Odur ki, hər bir vətəndaş dövlət rəmzlərinin yaranma tarixini, daşıdığı mənanı yaxşı bilməli, onları qorumalı, təbliğ etməli və aşıladığı ideyaları yaşatmalıdır. Bu baxımdan bayraq da xüsusi önəm kəsb edir.

Naxçıvan-Sədərək magistral yolunun sağ tərəfində Bayraq Meydanının tikintisinə başlanılması bu dövlət rəmzinə ehtiramın ifadəsidir. Sədərək rayonunun görkəmli yerində yüksələn üçrəngli bayrağımız dalğalanaraq, bir addımlığımızda yerləşən düşmənə gözdağı olacaq. Bildiyimiz kimi, bu yol həm də Qərbə açılan qapımızdır. Buradan gəlib-gedən hər bir yerli və əcnəbi sakin bayrağımızın vüqarla dalğalanmasını seyr edəcək.

Tikinti işləri uzunluğu 80, eni 80 metr olan ərazidə aparılır. Bayraq dirəyinin hündürlüyü 36,70 metr olacaq.

Qeyd edək ki, hazırda Şərur rayonunda da inşa edilməkdə olan Bayraq Meydanı muxtar respublikada beşinci eyniadlı obyektdir.

* * *



Sədərək rayonunda davam etdirilən tikinti sahələrindən biri də rayon ərazisində yerləşən Radio-televiziya verilişləri stansiyasıdır. Burada qurulacaq bina müasir üslubda olacaq. Bina ikimərtəbəli, 6 iş otağından, qazanxana, elektrik otağı və texniki otaqdan ibarət olacaq. İnşaat işləri yekunlaşdıqdan sonra binada yeni avadanlıqlar quraşdırılacaq. Beləliklə, həm işçilərin iş şəraiti, həm də müasir avadanlıqlarla teleradio verilişlərinin ötürülmə keyfiyyəti artacaq.

Burada olarkən öyrəndik ki, aparılan inşaat işləri sürətləndirilib, hazırda daxili və xarici divarlarda suvaq işləri tamamlanmaq üzrədir. Binanın fəsad hissəsində travertin daşları ilə üzləmə işləri görülür.

**Gülnarə HÜSEYNOVA**

# Naxçıvanın 24 aborigen üzüm sortu ABŞ-ın Kaliforniya ştatında əkilmişdir

## *Bu, muxtar respublika üçün mühüm aqrar nailiyyətdir*

***Doğma yurdun maddi və mənəvi dəyərlərini araşdırmaq, tədqiq etmək və gələcək nəsillərə çatdırmaq Vətənə sevgi, ziyalılıq nümunəsidir. Naxçıvan Muxtar Respublikasında meyvə və üzüm genofondunun qorunması, seleksiya yolu ilə zənginləşdirilməsi, gələcək nəsillərə ötürülməsi və iqtisadi əhəmiyyətli sortların istehsalata yönəldilməsi məhz bu məqsədə xidmət edir.***



AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasında regionun əsas maddi sərvətlərindən olan meyvə və üzüm genofondunun tədqiq olunması, qorunması, seleksiya yolu ilə zənginləşdirilməsi, aqrotexnikasının öyrənilməsi, iqtisadi əhəmiyyətli sortların istehsalata yönəldilməsi istiqamətində məqsədyönlü elmi araşdırmalar aparılır. Hələ 2003-cü ildən başlayaraq laboratoriyada "Naxçıvan Muxtar Respublikasının bioresurslarının öyrənilməsi, tədqiqi, səmərəli istifadəsi və mühafizəsinin bioloji əsasları" mövzusu üzrə elmi araşdırmalara başlanılmışdır. 2016-2020-ci illər elmi-tədqiqat dövrü üçün planlaşdırılmış "Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış yabanı və mədəni meyvə-giləmeyvə, tərəvəz bitkilərinin genofondunun toplanılması, tədqiqi və səmərəli istifadəsi" və "Genetik üsulların təkmilləşdirilməsi əsasında eksperimental yolla alınmış yeni üzüm sort və formalarının ampeloqrafiq xüsusiyyətlərinin tədqiqi və seçmə işləri" mövzuları üzrə elmi-tədqiqat işləri bu günədək davam edir.

Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmləri doktoru Varis Quliyev deyir ki, 17 ildir, muxtar respublika ərazisində yayılan müxtəlif yabanı, həmçinin mədəni meyvə növ və sortların genofondunun tədqiqi, müxtəlifliyinin tərkibi, genetik xüsusiyyətlərinin araşdırılması, toplanması, iqtisadi səmərəli olanların seçilməsi, təsərrüfat əhəmiyyətli sortların yaradılması, istehsalata yönəldilməsi və istifadəsi istiqamətində çoxsaylı elmi-tədqiqat işləri aparırlar. Bu dövr ərzində əldə olunan mühüm nəticələr Azərbaycan, eləcə də ABŞ, Almaniya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Orta Asiya ölkələri və Rusiya Federasiyasının nüfuzlu elmi jurnallarında nəşr olunub.

Varis müəllim onu da bildirdi ki, muxtar respublikamızın ərazisində aparılan tədqiqatlar nəticəsində yabanı meyvə və giləmeyvə bitkilərindən alma, armud, quşarmudu, yemişan, alça, gavalı, həmərsin, zirinc, böyürtkən, qarağat, çaytikanı, cinslərinə daxil olan növlərin sistematik tərkibi və yayılma zonaları öyrənilmiş, təbii ehtiyatı və səmərəli istifadə yolları araşdırılmışdır. Müəyyən olunmuşdur ki, hazırda muxtar respublika florasında almanın bir növ iki variasiya, 21 formasına, armudun 17 növ 3 variasiyasına, zirincin 6 növ və 2 formasına, quşarmudunun 17, yemişanın 17, çaytikanının 1, böyürtkənin 3, qarağatın 2, həmərsinin 30, alçanın 4, gavalının isə 6 növünə yabanı halda rast gəlinir. Aparılan çoxillik tədqiqatlar nəticəsində ilk dəfə olaraq Azərbaycan və Naxçıvan Muxtar Respublikası floraları üçün yeni olan 6 fəslə 9 cinsə aid 29 növ, 5 variasiya və 2 forma müəyyən edilmişdir. Tədqiqatlar nəticəsində növlərin təbii ehtiyatı hesablanmış və istifadə imkanları müəyyənləşdirilmişdir.



Aqrar elmləri doktoru müasir dövrdə muxtar respublikada meyvəçilik və üzümçülüyün aqrar sektorun prioritet sahələrindən birinə çevrilməsindən, bu istiqamətdə mühüm dövlət tədbirləri həyata keçirilməsindən də bəhs etdi. Bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramları diyarımızda meyvəçiliyin genişləndirilməsinə, əhalinin yerli meyvə məhsulları ilə etibarlı təminatının yaxşılaşdırılmasına mühüm töhfələr vermişdir. Qəbul edilən Dövlət proqramlarına uyğun olaraq laboratoriyada meyvə genofondunun tədqiqi, sort tərkibinin müəyyənləşdirilməsi, tətbiqyönümlü sortların öyrənilməsi, seçilməsi və iqtisadi qiymətləndirilməsi məqsədilə araşdırma aparılmışdır.

Varis Quliyev qeyd etdi ki, tədqiqat dövrü muxtar respublikada tumlu, çəyirdəkli və ikiləpəli meyvələrin genofondu tədqiq olunmuş, tətbiqyönümlü sortlar aşkarlanmış, hər bir ərazidə neçə sort və formaların yayıldığı müəyyən edilmiş, onlar üzərində qiymətləndirmələr aparılmışdır. Aparılan elmi-tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, ərazidə tumlu meyvələrdən alma, armud, heyva, əncir, əzgil, nar, tut, yemişan, çəyirdəkli meyvələrdən albalı, gilas, şaftalı, ərik, alça, zoğal, ikiləpəlilərdən isə cəviz, badam, fındıq, püstə və başqa növlər geniş yayılmışdır. Ekspedisiyalar nəticəsində məlum olmuşdur ki, ərazidə müvafiq növlər üzrə tumlu meyvələrdən almanın 116, armudun 51, heyvanın 10, əzgilin 1, tutun 5, əncirin 4, narın 6, yemişanın 18 sortu, çəyirdəkli meyvələrdən gilasın 14, gilənarın 7, gavalının 14, zoğalın 1, alçanın 21, göyəmin 2, əriyin 31, şaftalının 14 sortu mövcuddur. Ərazidə, həmçinin cəvizin 26, püstənin 2, badamın 8, limonun 4 sortunun yayıldığı aşkarlanmışdır. Bu zəngin genofonddan səmərəli istifadə edilərsə, muxtar respublika əhalisini sitrus meyvə sortları istisna olmaqla, yerli məhsullar hesabına tumlu və çəyirdəkli meyvə ilə tam təmin etmək mümkündür.

Müsahibim onu da vurğuladı ki, son dövrlər Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında üzümçülüyün genişləndirilməsinə diqqət artmaqdadır. Prezident cənab İlham Əliyevin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2011-ci il 15 dekabr tarixli Sərəncamında üzümçülüyün müasir vəziyyəti, inkişafının məqsəd və vəzifələri, əsas istiqamətləri, maliyyə mənbələri və gözlənilən nəticələr müəyyənləşdirilmişdir. Muxtar respublikada da üzümçülüyün və ona uyğun istehsal sahələrinin yenidən inkişaf etdirilməsi, yox olmaq təhlükəsi ilə üzləşən üzüm genotiplərinin qorunması, perspektivli sortların fermer və özəl təsərrüfatlarda geniş becərilməsinə nail olunması günün aktual problemlərindəndir.

Varis müəllim laboratoriyada üzümçülüyün genofondunun öyrənilməsi, sort müxtəlifliyinin, perspektivli genotiplərinin müəyyənləşdirilməsi, ampeloqrafik və genetik xüsusiyyətlərinin araşdırılması, iqtisadi qiymətləndirilmələrin aparılması, yeni sortların introduksiyası, kompleks davamlı və şaxtayadözümlü sortların əldə olunması istiqamətində müxtəlif seleksiya üsulları ilə məqsədyönlü elmi-tədqiqat işləri aparılması haqqında da məlumat verdi. O qeyd etdi ki, artıq diyarımızda üzümçülüyün qədim tarixə malik olmasını sübut edən yabanı üzüm növü öyrənilmiş, 6 variasiya müxtəlifliyi müəyyənləşdirilmiş, ilk dəfə olaraq yeni variasiya aşkar edilmişdir. Həmçinin becərilən üzüm sortlarının genofondu tədqiq edilmiş sort və forma müxtəlifliyi araşdırılmış və qiymətləndirilmişdir. Tədqiqat dövrü davamlı olaraq muxtar respublikada üzüm genofondunda müxtəlif genetik irsi əlamətlərə malik olan genotiplərin və müsbət irsi əlamətli donorların müəyyənləşdirilməsi, üzümçülükdə kəmiyyət və keyfiyyət dəyişikliklərinin qanunauyğunluqlarının tədqiqi, iqtisadi səmərəliliyin hesablanması, seleksiya işlərinin aparılması yolu ilə yeni sort və formaların yaradılması, onların istehsalata yönəldilməsi istiqamətində məqsədyönlü tədqiqat işləri aparılmış və mühüm elmi-praktik əhəmiyyət kəsb edən nəticələr əldə olunmuşdur. Tədqiqat zamanı ilk dəfə olaraq üzümdə çiçəkləmə dövrü, qametogenez mərhələdə genom mutasiyasının alınması metodikası işlənib hazırlanmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında aborigen üzüm sortlarının rəqəmsal ampeloqrafik təyini üsulu hazırlanmış, 92 sortun rəqəmsal təyinatı aparılmışdır. Müxtəlif genetik üsullarla – klassik hibridləşdirmə yolu ilə 200-dən çox hibrid təbiətli üzüm formaları seçilmiş, eksperimental poliploidiya və klon seleksiyası yolu ilə məqsədyönlü seleksiya işləri aparılmış, təsərrüfat əhəmiyyətli, davamlı, yüksək məhsuldarlığa və şəkərliliyə malik olan 50-dən çox perspektivli formalar əldə olunmuşdur. Bunlardan əlavə, genofonda daxil olan 120-dən çox üzüm sortunun biomorfoloji, aqrotexnoloji xüsusiyyətləri və xəstəliklərə qarşı



davamlılığı tədqiq edilmiş, beynəlxalq miqyasda qəbul olunmuş qayda üzrə ampelo-deskriptor xüsusiyyətləri araşdırılmış, rəqəmsal ampeloqrafiya əsasında irsi əlamətləri kodlaşdırılmış və şifrələnmişdir. İntroduksiya olunmuş 23 sortun adaptasiya olunma, əsas biomorfoloji və aqrobioloji xüsusiyyətləri araşdırılmış, muxtar respublika ərazisində üzümlüklərdə becərilməsi üçün 5 süfrə, 4 texniki istiqamətli daha perspektivli sortlar seçilmişdir.

Aqrar elmləri doktoru Varis Quliyev onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının 28 üzüm sortu Azərbaycan Dövlət Aqrar Universitetinin, 42 sortu Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun təcrübə sahələrində, 24 aborigen üzüm sortu isə ABŞ-a aparılaraq Kaliforniya ştatında üzümlüklərdə əkilmişdir. Seleksiya yolu ilə alınan 7 yeni üzüm forma-sortu istehsalata tətbiq üçün Seleksiya Nailiyyətlərinin Mühafizəsi üzrə Dövlət Sort Sınaq Komissiyasının xətti ilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Araz" Elm-İstehsalat Birliyinin təcrübə sahəsində əkilərək yoxlamadan keçirilməklə sınaq müddəti başa çatmışdır. Tədqiqat dövründə əməkdaşlar nüfuzlu elmi konfrans və simpoziumlarda fəal iştirak etmişlər. Onların 345 elmi əsəri, 16 monoqrafiyası nəşr olunmuşdur.

**Türkanə BƏYLƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

# Şahbuz rayonunda taxıl biçininə başlanılıb





Muxtar respublikanın dağlıq rayonlarından olan Şahbuzda da taxıl biçininə başlanılıb. Biçin, əsasən, Şahbuzkənd, Türkeş, Sələsüz və Daylaqlı kəndlərində aparılır.

Taxılın toplanılmasında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayon bazasına məxsus 2, fiziki şəxslərə aid 3 kombayndan istifadə olunur. Bu ilin məhsulu üçün rayonda, ümumilikdə, 1563 hektar sahədə taxıl əkini aparılıb. Rayonun təbii-iqlim şəraitinə uyğun olaraq burada taxıl biçininə digər rayonlarla müqayisədə gec başlanılır.

Qeyd edək ki, Şahbuz rayonunda taxılçılığa maraq ildən-ilə artır. Buna səbəb isə bu sahəyə göstərilən dövlət qayğısı və yeni suvarma sistemlərinin quraşdırılmasıdır. Ötən il Türkeş kəndində qapalı suvarma sistemlərinin quraşdırılmasının nəticəsidir ki, bu il ən çox taxıl rayonun həmin kəndində əkilib. Belə ki, torpaq mülkiyyətçiləri Türkeşdə 300 hektardan artıq sahədə taxıl əkiblər.

**Xəbərlər şöbəsi**

# Hərbi hissəyə sovqat təqdim edilib



*Naxçıvan Muxtar Respublikasında birləşmə və hissələrə sovqat aparılması artıq ənənə halını alıb. Xalq-ordu birliyini özündə əks etdirən tədbirlərin davamı olaraq bu dəfə kənd təsərrüfatı ilə məşğul olan sahibkar Elçin Qasımov tərəfindən hərbi hissəyə sovqat təqdim edilib.*

Əsgərlərimizlə söhbət zamanı sahibkar Elçin Qasımov onlara çətin və şərəfli xidmətlərində mətin olmağı, Vətən qarşısındakı borclarını uğurla yerinə yetirməyi arzu edib.

Hərbi hissənin zabiti Cavanşir Hüseynov bildirib ki, xalqımızın hər zaman əsgərlərlə bir yerdə olması xalqla ordu arasındakı sıx birlikdən irəli gəlir. Bu birlikdən daha da ruhlanan şəxsi heyət istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə hazırdır.

Emin Paşayev göstərilən diqqət və qayğıya görə şəxsi heyət adından minnətdarlıq edib.

Sonra gətirilən 2,5 ton çuğundur hərbi hissəyə təhvil verilib.

**Kənan CƏLİLOV**

# Yaylaqda sahibkarlarla görüş keçirilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tədbirlər planına əsasən Culfa rayonunun Dəmirli yaylağında Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin və Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ilə heyvandarlıq təsərrüfatları sahibkarlarının görüşü keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əyyub Abdullayev açıb. Bildirib ki, yay otlaqlarından səmərəli istifadə edilməsi diqqət mərkəzində saxlanılmalı, heyvanlara zootexniki qaydalara uyğun qulluq olunmalıdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Kamran Əliyev bildirib ki, otlaqların məhsuldarlığını artırmaq üçün istifadəçilər və ya icarədarlar sahələrdən və buradakı su mənbələrindən səmərəli istifadəyə və onların qorunub saxlanmasına, otlaq sahələrində mərz (sərhəd) nişanlarının qorunmasına çalışmalıdırlar.

Dövlət Baytarlıq Xidmətinin əməkdaşı Hüseyn Məmmədov yaylaq dövründə malqara arasında infeksion və invazion xəstəliklərin qarşısının alınmasında profilaktik tədbirlərin keçirilməsinin əhəmiyyəti haqqında danışıb.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb. Mütəxəssislərin hazırladıqları müxtəlif adda buklet-informasiya kitabçaları sahibkarlara paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

***İri və inamlı addımlarla irəliləməsi heç vaxt səngiməyən Azərbaycanın sosial-mədəni həyatı yaşadığımız 2020-ci ildə də əlamətdar hadisələrlə zəngin olmuşdur. Onlardan biri Türk-oğuz dünyasının keşməkeşli çağlarını yaşadan və əks etdirən misilsiz Gəmiqayanın daş salnaməsi haqqında möhtəşəm yeni əsərin – ən dolğun kitabın nəşridir. Haqqında bəhs edəcəyimiz kitab "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla işıq üzü görən "Gəmiqaya qayaüstü rəsmləri" adlı fundamental nəşrdir. Elmi yeniliklərlə zəngin kitabın layihə rəhbəri, gərgin elmi tədqiqatların ideya təşəbbüskarı və himayədarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur.***



*Yeni nəşrlər*

# Ulu daş salnaməyə böyük sevgi



Azərbaycanın əsrarəngiz yerlərindən olan Gəmiqayadakı təsvirlər artıq yarım əsrə bərabərdir ki, elm aləminə məlumdur və hələ də öz zənginliyi, özəllikləri ilə diqqət mərkəzində qalmaqda davam edir.

Məlumdur ki, qədim qayaüstü təsvirlər arxeologiyada maddi mədəniyyət abidələrinin özünəməxsus xüsusiyyətləri ilə seçilən və ən geniş yayılmış nümunələrindən biridir. İnsan dünyaya göz açdığı gündən görüb eşitdiklərini, keçirdiyi hiss və həyəcanı nəyinsə üzərində əks etdirməyə cəhd göstərmişdir. Çox güman ki, məhz elə buna görə qədim rəsmlərə, təsvirlərə dünyanın insan ayağı dəyən hər yerində təsadüf olunmuşdur. Bu Qayaüstü təsvirlər spesifik xüsusiyyətləri olan arxeoloji abidələr qrupudur. Bu abidələrin yaranması müvafiq coğrafi şəraitdən, ətraf mühitin fauna və florasından, regionda yaşayan qədim tayfaların təsərrüfat həyatının xüsusiyyətlərindən və onların dünyagörüşündən asılı olmuşdur. Azərbaycan qədim qayaüstü təsvirlərin geniş yayıldığı yerlərdəndir. Qobustan, Abşeron, Kəlbəcər, o cümlədən Gəmiqaya təsvirləri dünyanın arxeoloji xəritəsində xüsusi yer tutur.

Gəmiqaya Azərbaycanda qədim təsvirlərin aşkar olunduğu ən böyük abidədir. Bu ərazi Cənubi Qafqazın əlverişli iqlim şəraitinə malik strateji bir nöqtəsindədir. Keçilməz sıldırımlı Zəngəzur silsiləsində, Batabat yaylaqlarından ta Həkəri çayına qədər yeganə keçid olan Qapıcıq aşırımı da burada yerləşir. Bu ərazi qədim dövrlərdən Araz boyunda yaşayan qədim tayfaların yaylaq yerləri olmuşdur.





Gəmiqaya təsvirlərini digər analoji abidələrdən fərqləndirən burada rəsmlərin geniş ərazilərdə yayılması, çoxluğu, məzmun müxtəlifliyi və uzun bir xronoloji dövrü (IV-I minilliklər) əhatə etməsidir.

Bu təsvirlər Naxçıvanın qədim tayfalarının həyat tərzini, mənəvi mədəniyyətini, təsərrüfat həyatını, dini dünyagörüşünü, incəsənəti ətraflı öyrənməyə imkan verir. Qobustan, Gəmiqaya, Şərqi Anadolu, Qərbi Azərbaycan, Kəlbəcər qaya təsvirlərinin üslub və süjet oxşarlığı onların vahid bir mədəniyyətə aid olduğunu göstərməklə, eyni zamanda bu təsvirlər etnik identifikator kimi də çıxış edirlər. Bu rəsmlər süjet və obrazların yığımına, nisbətinə, kompozisiya quruluşunun xüsusiyyətlərinə görə Cənubi Qafqazın bir çox qayaüstü təsvirlərindən, o cümlədən Qobustan təsvirlərindən fərqlənir. Gəmiqaya təsvirlərində təkfiqurlu səhnələr çoxluq təşkil edir. Buradakı ov və rituallarla bağlı səhnələr, müxtəlif simvol və işarələr Naxçıvanın qədim tayfalarının tarixi və mədəniyyəti haqqında tutarlı nəticələr çıxarmağa imkan verir. Ümumiyyətlə, Naxçıvan elə bir tarixi-mədəni diyardır ki, burada metalın mənimsənilməsi dövründən başlayaraq yerli zəmin əsasında arxeoloji mədəniyyətlər formalaşmış, Yaxın Şərqdə yayılmış mədəniyyətlərin isə (Boyalı qablar mədəniyyəti) lokal variantları yaranmışdır.

XX əsrin 70-ci illərindən – Gəmiqaya təsvirləri elmə məlum olduqdan sonra Azərbaycan ərazisindəki qayaüstü təsvirlərin öyrənilməsinə diqqət artırıldı. Lakin əsrin sonlarında baş verən siyasi proseslər hər işdə olduğu kimi, bu işdə də uzun müddət fasilə yaratdı. Gəmiqaya təsvirlərinin öyrənilməsində əsas mərhələ XXI əsrin ilk ilindən – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il 26 aprel tarixli Sərəncamı ilə başlamışdır. Gəmiqaya təsvirlərinin tədqiqi sahəsində gələcəkdə aparılacaq elmi axtarışların mahiyyəti və əsas istiqamətləri həmin sərəncamda aydın şəkildə öz əksini tapmışdır: ***"Qədim türk mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının tarixinin, mənəvi mədəniyyətinin öyrənilməsi üçün böyük xəzinədir".***

Məhz bu tarixi dövlət sənədinin imzalanmasından sonra abidənin tədqiqi üçün Gəmiqaya arxeoloji ekspedisiyası yaradılmış, ekspedisiyanın fəaliyyəti nəticəsində 1000-dən artıq qayaüstü təsvir tədqiq olunmuşdur. Məlumdur ki, Gəmiqaya abidəsi əlçatmaz, nəqliyyat vasitələrinin yaxınlaşa bilmədiyi bir ərazidə yerləşir. Gəmiqayaya avtomobil yolunun çəkilməsi burada tədqiqat aparan ekspedisiyaların normal fəaliyyət göstərməsi üçün əlverişli şərait yaratmışdır.

Gəmiqaya abidəsi ilə bağlı mühüm tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 may tarixli Qərarı ilə "Gəmiqaya" Tarix-Bədii Qoruğunun yaradılması və abidənin mühafizəsinin təmin edilməsidir. 2013-cü il dekabrın 21-də "Gəmiqaya" Tarix-Bədii Qoruğu və Muzeyi açılmışdır.

Gəmiqaya abidələrinin tədqiqi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin daim diqqət mərkəzində olmuşdur. Hazırda 576 səhifəlik yüksək səviyyədə, nəfis şəkildə nəşr olunan "Gəmiqaya qayaüstü rəsmləri" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2016-cı ildə sənətşünas Nizami Alıyevin rəhbərliyi ilə yaradılmış Gəmiqaya ekspedisiyasının bir neçə illik fəaliyyətinin bəhrəsidir. Gəmiqaya abidəsində 2016-cı ilə qədər aparılmış tədqiqatlara kitabın girişində ətraflı toxunulmuş, onların əsas nəticələri qısa şərh edilmişdir.

Bir neçə kəlmə yeni albom-kataloqun müəllifi – tanınmış, istedadlı sənətşünas alim Nizami Alıyev haqqında deməyi özümə borc bilirəm. Nizami müəllim tariximizə, milli mədəniyyətimizə vurğun, yorulmadan Naxçıvanı qarış-qarış gəzən, müxtəlif dövrə aid abidələrin tanıdılması, qorunması, konservasiyası və bərpası məsələlərində böyük əməyi olan insandır. Gəmiqaya təsvirlərinin tədqiqi ilə indiyədək müxtəlif ixtisas sahibləri məşğul olsalar da, abidə sənətşünasların diqqətindən kənarda qalmışdır. Yaddan çıxarmaq olmaz ki, qayaüstü təsvirlər, ilk növbədə, incəsənət tarixinin öyrənilməsində unikal mənbədir. Bu baxımdan Gəmiqaya təsvirlərinin istedadlı sənətşünas Nizami Alıyev tərəfindən ən dolğun şəkildə nəşrə hazırlanması böyük elmi dəyəri olan təqdirəlayiq işdir. Onun rəhbərlik etdiyi ekspedisiyanın fəaliyyətinə qiymət vermək üçün bir neçə faktı qeyd etmək kifayət edər: tədqiqatçılar axtarış dövründə 136 hektar sahədə 2040 daş üzərində 7422 təsvir qeydə almış, onları işləyərək nəşrə hazırlamışlar. Avrasiya məkanında bu nadir nümunədir.

Qayaüstü təsvirlər ərazidə müxtəlifadlı sahələrdə səpələnmiş şəkildə yerləşmişdir. Təsvirlər düzgün olaraq bir sırada kodlaşdırılmış, lakin qruplaşdırılaraq sahələr üzrə qeydə alınmışdır. Yəni oxucu üçün hər bir təsvirin yerini müəyyən etmək çətinlik törətmir.

"Gəmiqaya qayaüstü rəsmləri" kitabının nəşrə hazırlanmasında elmi redaktor, görkəmli arxeoloq, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin də böyük əməyi vardır. Vəli müəllim Gəmiqaya təsvirlərini daim tədqiqata cəlb etmiş, digər arxeoloji materiallarla müqayisəli təhlilini aparmış, onların semantikası haqqında qiymətli fikirlər söyləmişdir.

Yeni nəşrin əhəmiyyətliliyi bir də ondadır ki, burada rəsmlərin yerləşdiyi daşların təsviri ilə kifayətlənilməmiş, onların dəqiq ölçüləri də verilmişdir. Təsvirlərin fotoşəkillərinin miqyasla çəkilməsi isə gələcək tədqiqatlar üçün vacib amillərdən biridir. Kitabın üstünlüklərindən biri də mətnlərin, şəkillərin alt yazılarının Azərbaycan, ingilis və rus dillərində verilməsidir. Bu onun geniş oxucu kütləsi qazanmasına, Gəmiqaya abidəsinin dünyada tanınmasına və təbliğinə, eyni zamanda daha geniş elmi dövriyyəyə çıxmasına şərait yaradır. Gəmiqaya təsvirlərinin yeni albom-kataloqu bu sahədə hələ görüləcək işlərin çox olduğunu da göstərir. Yeni tədqiqatlarda "Gəmiqaya qayaüstü rəsmləri" kitabı əvəzsiz mənbə olacaqdır.

*Yeni nəşrdəki məlumatlardan müxtəlif elm sahələrində çalışan mütəxəssislər təsvirlərin təsnifatı, işlənmə texnikası, üslub xüsusiyyətləri, estetik, funksional xüsusiyyətləri, semantikası və kulturoloji aspekti haqqında araşdırmalarda istifadə edə bilərlər. Albom-kataloq Naxçıvanşünaslığa və milli tariximizə böyük töhfə olmaqla, dünya elmi ictimaiyyətinin də diqqətini cəlb edə biləcək mükəmməl elmi-kütləvi nəşrdir.*

**Qüdrət İSMAYILZADƏ**
***Azərbaycan Respublikasının Əməkdar müəllimi, tarix elmləri doktoru, professor***

## Ölkəsindəki özbaşınalıqlardan təngə gələn Ermənistan vətəndaşı Naxçıvana keçdi

*Ermənistan vətəndaşı 30 yaşlı Narek Sardaryan işğalçı ölkənin mövqelərində yaranmış nəzarətsizlikdən istifadə edərək Naxçıvan Muxtar Respublikasının ərazisinə keçib. Hərbçilərimiz tərəfindən saxlanılan Sardaryan Naxçıvanla sərhəddə heyvandarlıqla məşğul olduğunu, öz ölkəsində olan zorakılıq, məmur özbaşınalığı və ədalətsizliklərdən bezərək sərhədi keçmək üçün fürsət axtardığını və ölkəmizə sığındığını bildirib. "Nuhçıxan" İnformasiya Agentliyi Sardaryanın etiraflarını təqdim edir:*



***– Özünüzü təqdim edin.***

– Mən, Sardaryan Narek Suren oğlu 18 oktyabr 1990-cı ildə doğulmuşam, Syunik rayonunun Aşağı Xndzoresk kənd sakiniyəm, 2014-cü ildə ailə həyatı qurmuşam, 2 uşağım var, heyvandarlıq və əkinçiliklə məşğul oluram.

***– Sərhədi nə üçün keçmişdiniz, məqsədiniz nə idi?***

– Sərhədi əvvəllər də keçmək istəmişəm, amma imkanım olmayıb, Naxçıvanla sərhəddə heyvandarlıqla məşğul olanda bu imkanı əldə etdim. Çünki Ermənistanda zorakılıqlar, ədalətsizliklər var, mən çox məmurlara, hakimiyyət nümayəndələrinə müraciət etmişəm, lakin kömək etməyiblər. Ona görə də Azərbaycan sərhədini keçmişəm. Azərbaycan tərəfdən köməklik istəyirəm. Sərhəddə əsgərlər mənə yaxşı münasibət göstərdilər, atəş açmadılar.

***– Sərhədi necə keçdiniz?***

– Heyvanları otara-otara Azərbaycan postuna doğru yaxınlaşdım, hərbçilər məni vurmasın deyə, ağ paltarımı çıxarıb göydə yellədim və hərbçilər məni saxladılar.

***– Sizə qarşı hansı haqsızlıqlar olub?***

– Mənə qarşı çox haqsızlıqlar olubdur, kənd icra nümayəndəsi torpaq vergisi ilə yanaşı, hər bir heyvan başına 20000 dram pul istəyir. Əslində, 2000 dram verməliyik, bizdən zorla rüşvət olaraq artıq pul alırlar. Heyvan satmaq istədikdə sahə müvəkkili Andranik gələrək onun üçün haqq istəyir. Əks-təqdirdə, şər ataraq həbs edəcəyi ilə hədələyir.

***– Naxçıvanla sərhəddə yerləşən Qorayk kəndinin otlaq sahələrinə heyvanları nə üçün gətirmişdiniz?***

– Gorusda otlaq sahəsi yox idi, Qoraykda isə 200 hektar otlaq sahəsi üçün məndən 1000 dollar rüşvət aldılar. Sisyan icra orqanına da otlaq sahələrindən istifadə üçün 1000 dollar pul vermişəm.

***– Ermənistandakı vəziyyət barədə nə deyə bilərsiniz?***

– Ermənistanda vəziyyət çox pisdir, demək olar ki, heç bir iş yoxdur, rüşvətxorluq və ədalətsizlik baş alıb gedir. Polisdə rüşvətxorluq çoxdur, əhalinin sosial-iqtisadi vəziyyəti çox ağırdır. Syunik vilayəti ərazisindəki otlaq sahələrində Gorusun yol polisinin rəisi Sevak və hərbi komissar Armen səlahiyyətlərindən istifadə edib bütün əlverişli torpaqları zəbt ediblər və bizlərə orada heyvandarlıqla məşğul olmağa imkan vermirlər, həmin əraziyə digər yerli sakinləri buraxmırlar.

***– Ermənistan ordusunda ümumi vəziyyət necədir?***

– Ermənistan ordusunda vəziyyət çox pisdir, heç kim bir-birini qəbul etmir, intizamsızlıq var, bir-birlərinə tabe olmurlar, narkotikadan geniş istifadə edilir. Orduda hərbçilərin narkotika yetişdirib satılmasına göz yumulur. Ümumiyyətlə, orada polis narkotikadan istifadə edənlərə qarşı heç bir tədbir görmür. Ayrı-ayrı ərazilərdə tiryək və narkotika yetişdirilir, polis gücsüzdür, mübarizə apara bilmir.

***– Sizin xidmət keçdiyiniz hərbi hissələrdə hansı qanunsuzluqlar mövcud idi?***

– Mən Sərhəd Qoşunlarının Vanadzordakı 5060 saylı və Zəngilan rayonunun Kaşatağ bölgəsindəki 5070 saylı hərbi hissələrdə xidmət keçmişəm. 2019-cu ildə Qubadlı rayonunda səfərbərlik toplantısında iştirak etmişəm. Ermənistan ordusunda hərc-mərclik, intizamsızlıq və rüşvətxorluq baş alıb gedir. Səfərbərlik toplantısında 700 nəfərin iştirakı nəzərdə tutulsa da, heç 200 nəfər iştirak etmirdi.

***– Həyatınızın bundan sonrakı hissəsini necə görürsünüz?***

– Xahiş edirəm ki, burada mənə vətəndaşlıq verilsin, Ermənistana geri qaytarılmayım, oradan bezmişəm, orada insanları çox incidirlər. Olmasa belə, xahişim budur ki, məni üçüncü bir dövlətə təhvil versinlər.

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, müvafiq sahə ilə bağlı təbliğat işinin aparılması iyun ayında da diqqətdə saxlanılmışdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın müvafiq bəndinin icrası ilə əlaqədar sağlamlıq imkanları məhdud, aztəminatlı ailənin üzvü olan 220 qadınla əlaqə saxlanılaraq söhbətlər aparılmış, onlardan 41-i haqqında məlumat Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə göndərilmişdir.

Hesabat dövründə Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi və icra etdiyi "Genderə Həssas Dayanıqlı İnkişaf Məqsədlərinin Həyata Keçirilməsində Vətəndaş Cəmiyyətinin Rolunun Artırılması" adlı daha genişmiqyaslı proqram çərçivəsində "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsinin davamı olaraq Naxçıvan Muxtar Respublikasında pandemiya ilə əlaqədar qadınlara iqtisadi dəstək göstərilməsi üçün tədbirlər keçirilmişdir. Belə ki, layihə çərçivəsində Naxçıvan Biznes Mərkəzində layihə iştirakçıları üçün "Pandemiyadan qorunma tədbirləri" mövzusunda maarifləndirici seminarlar təşkil edilmişdir. Seminarların sonunda hər bir iştirakçıya əlcək, nanomaska və pandemiya ilə mübarizədə təhlükəsizlik tədbirlərinə dair layihə broşürü olan çanta təqdim edilmişdir. Seminarlar layihə təşkilatçıları tərəfindən internet bağlantısı vasitəsilə canlı izlənilmişdir. Layihənin sonunda, ümumilikdə, muxtar respublikanın bütün rayonlarını əhatə etməklə 39 qadına 25 min 550 manat dəyərində sərmayə kapitalı verilmişdir. Sərmayə kapitallarının 72 faizi ailə təsərrüfatlarının genişləndirilməsi və ya qurulması, 28 faizi isə dərzilik, bərbərlik, xalçaçılıq, rəssamlıq, zərgərlik, psixoloji xidmət sahəsi və sair ilə məşğul olmaq üçün nəzərdə tutulmuşdur. Eyni zamanda ötən ay sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı layihə iştirakçılarının evlərində monitorinq keçirilmişdir.

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar muxtar respublikada yaşayan hemofiliyalı və talassemiyalı uşaqlar üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasında qanvermə aksiyası keçirilmişdir. Ötən ay elektron məlumat bankına 1010 uşaq haqqında fərdi məlumatlar daxil edilmiş, əlavə olaraq Naxçıvan şəhəri üzrə valideyn himayəsindən məhrum olmuş 2 uşağın qeydiyyatı aparılmışdır. Həmçinin hesabat dövründə Naxçıvan Muxtar Respublikası üzrə 1814 sağlamlıq imkanları məhdud uşağın rayon, şəhər, illər və xəstəliklər üzrə təhlili aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Mütaliəyə orta məktəbdə oxuyarkən maraq göstərməyə başlamışam. Bu marağı məndə ədəbiyyat fənnini tədris edən Rəşadə Seyidova yaradıb və buna görə də özümü ona borclu sayıram. Hələ orta təhsil illərində Rəşadə müəllimənin tövsiyəsi ilə dünya və Azərbaycan ədəbiyyatından müxtəlif əsərləri oxumuşam. Tədricən kitablar yaxın dostlarıma çevrilib. Çünki mütaliə insanların söz ehtiyatının zənginləşməsində, həyata baxışlarının formalaşmasında, nitq qabiliyyətinin inkişafında ən yaxşı vasitədir.***

*Estafet*

## "Kitabi-Dədə Qorqud" xalqımızın tarixidir




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı isə biz gənclərə düzgün mütaliə istiqaməti verməklə bilik və dünyagörüşümüzün formalaşmasında, milli mənəviyyatımızın zənginləşməsində başlıca rol oynadı. Onu da deyim ki, həmin sərəncamla təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"nda yer almış əsərlərin bəzilərini orta məktəbdə təhsil aldığım illərdə mütaliə etmişəm. İndi isə oxumadığım kitabları oxuyuram. Onlardan biri xalqımızın qəhrəmanlıq dastanı olan "Kitabi-Dədə Qorqud"dur. Onu da deyim ki, orta məktəbdə bu dastanın bəzi hissələri ilə tanış olmuşdum. Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilmiş "Dədə-Qorqud" filminə dəfələrlə baxmışdım. Ancaq əsərin özünü bütövlükdə oxumaq istəyirdim. Və yay tətili günlərində "Kitabi-Dədə Qorqud"u mütaliə etməyə başladım.

Bu böyük əsəri oxuduqca düşündüm ki, doğrudan da, xalqımız ulu tarixə və şərəfli keçmişə malikdir. Hər vaxt öz torpaqlarının keşiyində durub, gözəl adət-ənənələri olub. Kişiləri ilə bərabər, qadınları da qəhrəmanlıqlar göstəriblər. Məncə, hər bir gənc fəxr edə bilər ki, belə xalqın övladıdır.

Müqəddimə və on iki boydan ibarət olan bu möhtəşəm əsərdə hər boy bir dastandır. Dastanların əsas mövzusunu qədim Oğuz tayfalarının yadelli işğalçılara qarşı mübarizəsi təşkil edir. Dastanda təsvir olunan XI-XII əsrlərdəki hadisələr Dəmirqapı Dərbənd, Bərdə, Gəncə, Dərəşam, Əlincə, Qaradağ və başqa yerlərdə baş verir. Hər dastanda isə oğuzların bir qəhrəmanlığı ilə tanış olursan.

Dədə Qorqud bir el ağsaqqalıdır, Oğuz tayfalarının yol göstərənidir. Onun hər bir sözü oğuzlar üçün qanundur. Dədə Qorqud toy, yas, bayram mərasimlərinin başında durur, yeni doğulanlara ad qoyur. Maraqlı orasıdır ki, oğuzlarda oğlan uşaqlarına ad onların göstərdikləri hansısa bir şücaətdən sonra verilir. Məsələn, dastanda Basata və Buğaca verilən adlar onların şücaəti ilə bağlıdır. Məncə, bu da onu göstərir ki, Oğuz türkləri həmişə qəhrəmanlıqlar dolu həyat yaşayıblar, hər an düşmənin qəfil hücumlarına hazır olublar. Dastanlarda verilən vədə sadiq qalmaq, etibarlı olmaq da diqqət çəkir. Bu baxımdan Qaraca Çoban surəti daha çox xoşuma gəlir. Yeri gəlmişkən, elə həmin boydan öyrənirik ki, oğuzlarda namusla, qeyrətlə yaşamaq onlar üçün ən yüksək keyfiyyətdir. Məsələn, ana qırx qadın içərisində tanınmasın deyə, öz oğlunun ətindən bişiriləcək kababı yeməyə hazırdır.

Dastanlarda qadına böyük hörmət göstərilir, onlar kişilərlə bərabər döyüşlərdə iştirak edir, qurşaq tutur, at minir. "Kitabi-Dədə Qorqud"da ana surəti ilə o dövrdə bu müqəddəs varlığa bəslənilən məhəbbət diqqəti çəkir.

Dastanda xalqımızın qədim adət-ənənələrinə böyük ehtiramla yanaşıldığını da görürük. Bu sırada toy və yas mərasimləri xüsusi yer tutur. Oğuzlar həmin mərasimlərə ciddi əməl edirlər.

Həmin dastanı oxumağı bütün gənclərə tövsiyə edirəm.

**Günay İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin III kurs tələbəsi***

## "Nağı Nağıyev-110" mövzusunda onlayn elmi konfrans keçirilib




*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda görkəmli Azərbaycan ədibi Nağı Nağıyevin anadan olmasının 110 illiyinə həsr olunan onlayn elmi konfrans keçirilib.*

Tədbiri institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev açaraq görkəmli nasir, tanınmış dramaturq, tərcüməçi, redaktor, ictimai xadim, rəssam Nağı Nağıyevin həyat və yaradıcılıq yoluna nəzər salıb. Alim Nağı Nağıyevin Azərbaycan ədəbiyyatı tarixində böyük xidmətləri olduğunu qeyd edərək onun əsərlərinin əhəmiyyətindən bəhs edib. Bildirib ki, 70 illik ömrünün 40 ilini bədii yaradıcılığa həsr edən yazıçı dram əsərləri, roman, povest, hekayə, oçerklər ilə yanaşı, həm də müxtəlif xalqların ədəbiyyatlarından tərcümələr edib. Ədəbi mühitin inkişafında misilsiz xidmətləri olan yazıçının əsərləri gənc nəslin yetişməsində mühüm rol oynayıb.

Əbülfəz Quliyev görkəmli yazıçının bir çox sahələrdə uğurlu fəaliyyətinin öyrənilməsi istiqamətində mühüm işlərin həyata keçirildiyini diqqətə çatdıraraq institutun "Taleyi və sənəti" layihəsi çərçivəsində hər il işıq üzü görən məqalələr toplusunun 2020-ci il üçün növbəti sayının Nağı Nağıyevə həsr edildiyini bildirib.

Konfransda, həmçinin institutun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyevanın "Nağı Nağıyevin tərcüməçilik fəaliyyəti", şöbənin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın "Nağı Nağıyevin əsərlərində dil və üslub xüsusiyyətləri" və Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılovanın "Nağı Nağıyevin bədii nəsri" mövzularında məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

## Onlayn saz ifaçılığı müsabiqəsinin nəticələri elan olunub

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 12 iyun-12 iyul tarixləri arasında keçirilən "Saz sənətini yaşadırıq" adlı onlayn saz ifaçılığı müsabiqəsinin qalibləri müəyyənləşdirilib.*

İki yaş kateqoriyası – (8-13), (14-18) və iki nominasiya – "Saz havası" və "Aşıq havası" üzrə keçirilən müsabiqəyə təqdim edilən ifalara 13 və 14 iyul tarixlərdə baxış keçirilib, hər iki yaş kateqoriyası və nominasiyalar üzrə müsabiqənin qalibləri və fərqlənən ifaçılar seçilib. Müsabiqənin nəticələrinə əsasən 8-13 yaş kateqoriyasında "Aşıq havası" nominasiyası üzrə I yerə Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin şagirdi Sevinc Quliyeva, II yerə isə Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin şagirdi Dinarə Babayeva layiq görülüb. Kolanı Kənd Uşaq Musiqi Məktəbinin şagirdi Röya Dadaşova, Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbinin şagirdi Vüsal Məmmədov isə öz ifaları ilə fərqlənənlər sırasında olublar.

Həmin yaş kateqoriyasında "Saz havası" nominasiyası üzrə I yerə Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin şagirdi Asiman Məmmədov, II yerə isə Vənənd Kənd Uşaq Musiqi Məktəbinin şagirdi Elmir Cəfərov layiq görülüb. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbinin şagirdi Nurgül Həni-fəyeva, Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbinin şagirdi Hədiyyə Osmanova həmin nominasiya üzrə fərqləniblər.

14-18 yaş kateqoriyasında isə "Aşıq havası" nominasiyası üzrə I yeri Şahbuz Şəhər Uşaq Musiqi Məktəbinin şagirdi Sibel Camalova, II yeri Naxçıvan Musiqi Kollecinin tələbəsi Sevinc Ağalarova, III yeri isə Kolanı Kənd Uşaq Musiqi Məktəbinin şagirdi Mətləb Şirinzadə tutaraq qalib adını qazanıblar. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi Songül Əhmədova, Ələkli Kənd Uşaq Musiqi Məktəbinin şagirdi Aysel Salahova isə həmin nominasiya üzrə öz ifaları ilə fərqləniblər.

Həmin yaş kateqoriyasında "Saz havası" nominasiyasının qalibi Naxçıvan Musiqi Kollecinin tələbəsi Nurçin Məmiyeva olub, Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbinin şagirdi Hümbət Əliyev isə fərqlənənlər sırasında olub.

Qeyd edək ki, qaliblər və fərqlənən iştirakçılar diplom və fəxri fərmanla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Fövqəladə hallara hazırlıq işləri diqqətdə saxlanılır

*Muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası iyun ayında da davam etdirilib.*



Fövqəladə hallar zamanı fəaliyyəti zəruri olan 30 müəssisə və təşkilatda hazırlığın vəziyyəti yoxlanılıb, Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində kompleks yoxlama, Uzunoba Su Anbarında isə taktiki-xüsusi təlim keçirilib. Çimərlik mövsümünə hazırlıqla əlaqədar Naxçıvan şəhər çimərliyində təmir-bərpa və təmizlik işləri aparılıb, çimərliyin açılışı təmin edilib. İyunun 15-dən xilasetmə qrupunun çimərlikdə gündəlik xidməti təşkil olunub.

Pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlər davam etdirilib, səkilər, kənd mərkəzləri, habelə qəbul və buraxılış imtahanları keçirilən 28 ümumtəhsil məktəbi dezinfeksiya olunub.

Ötən ay 10 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunmasına nəzarət edilib, 8 müəssisədə aparılmış yoxlama-nəzarət zamanı aşkar olunmuş qayda pozuntuları aradan qaldırılıb. 9 obyektdə mühafizə işinin təşkili, 12 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin vəziyyəti yoxlanılıb, 4 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilib.

Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə 147 obyektdə diqqətli, 177 obyektdə nəzəri və 12 obyektdə məqsədli yanğın-texniki müayinələr aparılıb. Yerli icra hakimiyyəti orqanları ilə birgə 2 min 975 yaşayış evinə baxış keçirilib, 36 ədəd elektrik xətti və 52 ədəd şlanqla çəkilmiş qaz xəttinin yeri dəyişdirilib, nasaz 4 suqızdırıcının və 54 təzqatlanan tüstü borusunun istismarı dayandırılıb. Daşınmaz əmlakın icbari sığortası ilə bağlı 95 obyektdə icbari sığorta müqaviləsinin bağlanılması təmin edilib.

Ot-taxıl biçini dövründə sahələrdə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə əlverişli yerlərdə, intensiv biçin aparılan sahələrdə gündəlik olaraq patrul xidməti təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində Səfərov Məhərrəm Sədəli oğlunun adına verilmiş JN-1474^A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 526**